**UOT 327**

# AZƏRBAYCAN-İSRAİL MÜNASİBƏTLƏRİ MİLLİ VƏ REGİONAL TƏHLÜKƏSİZLİK KONTEKTSİNDƏ

**Ceyhun SƏYİDOV** [*]

Məqalə redaksiyaya daxil olmuşdur: 17 fevral 2025; çapa qəbul edilmişdir: 26 may 2025; online-da çap edilmişdir: 25 iyun 2025.

Received: 17th of February, 2025; accepted: 26th of May, 2025; published online: 25th of June, 2025.

**Açar sözlər:** *milli maraq, strateji maraq, beynəlxalq hüquq, dövlətin maraqları, əməkdaşlıq.*

## Giriş

Azərbaycan-İsrail ikitərəfli münasibətlərin qurulması və bugünkü səviyyədə inkişaf etməsi bəzi müəlliflər tərəfindən müasir dövrdə bir zərurət kimi qiymətləndirilsə də, onun tarixinə nəzər saldıqda, yerli xalqlar arasında münasibətlərin xeyli əvvəl meydana gəldiyini görərik. Azərbaycan Respublikası ilə İsrail Dövləti arasındakı münasibətlərin yaranması və müstəqillikdən sonrakı illər ərzində inkişaf edərək günümüzdəki strateji əməkdaşlıq səviyyəsinə yüksəlməsində azərbaycanlı və yəhudi icmalarının tarixin sınaqlarından çıxmış qarşılıqlı hörmət, uzun müddət sülh və dini tolerant mühitdə birlikdə yaşayışının əvəzolunmaz rolu danılmazdır. Məlumdur ki, Azərbaycanın Quba rayonunun ərazisində (Qırmızı Qəsəbə) məskunlaşmış dağ yəhudilərinin indiki Azərbaycan ərazisinə ilk gəlişləri təqribən e.ə. VI əsrə təsadüf edir [2].

Azərbaycan Respublikası müasir dövrdə İsrail Dövlətinin ən sıx əlaqədə olduğu müsəlman dövlətidir. Təsadüfi deyil ki, Wikileaks-də çap olunan ABŞ-nin Azərbaycandakı səfirliyinin teleqramında Prezident İlham Əliyevin Azərbaycan Respublikası ilə İsrail Dövlətinin əlaqələrini aysberqə bənzətdiyi və bu əlaqələrin yalnız kiçik bir hissəsinin göründüyünü qeyd etdiyi bildirilmişdir.

Azərbaycanlılar və yəhudilər arasında qədim zamanlardan bu günə qədər mövcud olan münasibətlərə diqqət yetirmək lazımdır. Bu xalqlar həmişə bir-birinin dilinə, dininə, mədəniyyətinə dərin hörmət və ehtiramla yanaşıblar. Məqalədə göstərilir ki, hər iki dövlətin qarşılıqlı münasibətləri bu gün strateji tərəfdaşlıq səviyyəsinə qalxmışdır. 2020-ci il sentyabrın 27-də başlayan 44 günlük Vətən müharibəsində İsrailin Azərbaycana göstərdiyi dəstək strateji tərəfdaşlığın ən bariz nümunəsi oldu [1, s. 12].

## 1. Azərbaycan-İsrail əlaqələrinin qurulması

XX əsrin sonlarına yaxın dövlət müstəqilliyini yenidən əldə edən Azərbaycanın xarici siyasətində dünya ölkələri ilə qarşılıqlı etimada əsaslanan bərabərhüquqlu münasibətlərin qurulması prioritet istiqamətlərdən birini təşkil etdi. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan bu siyasətin əsas məqsədi həmsərhəd dövlətlərlə

[*] *dissertant, Bakı Slavyan Universiteti*
*e-mail:* ceyhun.k-n@mail.ru
**https://doi.org/10.30546/25194011.2025.14.2.217**

yanaşı, regional dövlətlərlə və dünya birliyinin üzvü olan digər dövlətlərlə beynəlxalq hüququn əsas prinsipləri əsasında münasibətlər qurmaq, ölkənin milli maraqlarını regional və beynəlxalq səviyyədə müdafiə etməkdir. Bu dövrdə Azərbaycanın üzləşdiyi işğalçılıq siyasəti haqqında obyektiv informasiyanın formalaşdırılması zərurəti də dünya ölkələri ilə əməkdaşlığın inkişaf etdirilməsini şərtləndirirdi.

Müstəqilliyin ilk illərindən başlayaraq, Azərbaycanın xarici siyasətində İsrail dövləti ilə münasibətlərin qurulması və inkişaf etdirilməsi hər zaman mühüm əhəmiyyət kəsb etmişdir. 1991-ci il dekabrın 5-də İsrail Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanımışdır. 1992-ci il aprelin 7-də Azərbaycan Respublikası və İsrail Dövləti arasında diplomatik əlaqələrin təməli qoyulmuşdur. 1993-cü ildə Bakıda İsrail Dövlətinin səfirliyi açılmışdır.

1993-cü ildə hakimiyyətə gələn ümummilli lider Heydər Əliyev İsrail dövləti ilə əlaqələrin qurulmasına xüsusi əhəmiyyət vermiş, dəfələrlə ikitərəfli və çoxtərəfli formatda İsrail dövlət rəsmiləri ilə müxtəlif görüşlər keçirmişdir. 1995-ci il yanvarın 28-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İsveçrədə keçirilən Dünya İqtisadi Forumunda İsrailin Xarici İşlər Naziri Şimon Pereslə, elə həmin il oktyabrın 22-də BMT Baş Məclisinin iclasında İsrailin Baş Naziri İshaq Rabinlə, 1996-cı il dekabrın 2-də isə ATƏT-in dövlət başçılarının Lissabonda toplantısı çərçivəsində İsrailin Baş Naziri Benyamin Netanyahu ilə görüşüb, qarşılıqlı maraq doğuran məsələləri müzakirə edib. Heydər Əliyev ATƏT-in Lissabon Zirvə Toplantısında Netanyahu ilə görüş və danışıqlarından, həmçinin onun İsrail hökuməti adından Azərbaycanın qarşılaşdığı problemlərin aradan qaldırılmasında lazımi köməklik göstərməyə hazır olduğu barədə bəyanatından məmnun qaldığını bildirib. 1997-ci il avqustun 29-da İsrailin Baş Naziri Benyamin Netanyahu Azərbaycana qısamüddətli səfər edib və Prezident Heydər Əliyevlə görüşmüşdür [6].

İki ölkə arasında münasibətlərin inkişafına Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də diqqətlə yanaşır. 2009-cu ilin may ayında paytaxt Təl-Əvivdə qarşılıqlı münasibətlərin tarixində ilk dəfə olaraq Azərbaycan-İsrail Biznes Forumu keçirilib. 2009-cu il iyunun 28-29-da Azərbaycan-İsrail münasibətləri tarixində ilk dəfə olaraq İsrail Prezidenti Şimon Peres Azərbaycana rəsmi səfərə gəlib. Səfər zamanı Azərbaycan və İsrail prezidentlərinin iştirakı ilə bir sıra razılaşmalar əldə olunub. 2010-cu il fevralın 15-də İsrailin Baş Naziri Ehud Olmert Azərbaycana səfər edib. 2016-cı il dekabrın 13-də İsrailin Baş Naziri Benyamin Netanyahunun Azərbaycana səfəri Azərbaycan-İsrail qarşılıqlı münasibətlərinin daha da möhkəmlənməsi üçün çox uğurlu olub.

2020-ci ildə 44 günlük Vətən müharibəsinin yaratdığı yeni geosiyasi reallıqlar Azərbaycanı bu istiqamətdə konkret addımlar atmağa məcbur etdi. Məhz bu siyasətin nəticəsi olaraq Azərbaycan uzun müddətdən sonra – 2023-cü ildə İsraildə öz səfirliyini təsis etdi [5]. Azərbaycanın İsraildə səfirliyinin gec açılmasına baxmayaraq, hər iki dövlət arasında daim sıx təmaslar saxlanılmış və hətta iki dövlətin münasibətləri strateji əməkdaşlıq səviyyəsinə qədər yüksəlmişdir.

Azərbaycan və İsrail xalqları həmişə bir-birinin dilinə, dininə, mədəniyyətinə dərin hörmət və ehtiramla yanaşıblar. Məlumdur ki, yəhudi icmalarının bəzi nümayəndələri onlara qarşı diskriminasiyadan özlərini qorumaq üçün tarixin müxtəlif dövrlərində Azərbaycana üz tutmuş, burada etnik ayrı-seçkilik olmadan yaşaya biləcəkləri ev tapmışlar. Çoxəsrlik dostluq yəhudilərə Azərbaycanda təkcə yurd salmağa deyil, həmçinin onların burada tam layiqli həyat sürməsinə şərait yaratmışdır.

Qeyd etmək lazımdır ki, yəhudilərin bu ərazilərə köçdüyü dövrdən indiyədək buradakı yerli xalqlarla aralarında hər hansı münaqişələrin baş verməsinə dair heç bir tarixi fakt mövcud deyil. Müxtəlif tarixi dövrlərdə Azərbaycana fərqli yəhudi icmalarının gəlməsinə, buraları yurd etmələrinə baxmayaraq, onlarla yerli əhali daim sülh və

əmin-amanlıq şəraitində yaşamış və tarixi köklərə malik bu birgəyaşayış, dostluq müstəqillik dövründə də iki dövlət arasında strateji əməkdaşlığın qurulmasının əsaslarını təşkil etmişdir.

## 2. Azərbaycan-İsrail əlaqələri: qarşılıqlı maraqlar və təhlükəsizlik məsələləri

Soyuq müharibədən sonrakı dövrdə beynəlxalq mühitdə baş verən dəyişiklikləri nəzərə alaraq, İsrail Dövləti yeni müttəfiqlər tapmalı, regionda öz təhlükəsizliyini təkmilləşdirərək qlobal siyasətdə yeni rol almaq zərurətində idi. İsrail Dövləti Cənubi Qafqaz və Orta Asiyada özünün düşməni – İrandakı rejimə qarşı yeni müttəfiqlər axtarışında Azərbaycan və Qazaxıstan respublikaları ilə çox ciddi əməkdaşlıq qurmağa müvəffəq oldu. Bu qeyd edilən strateji hədəflərinə nail olmaqda İsrail Dövlətinin maraqları bir çox hallarda ABŞ-nin maraqları ilə üst-üstə düşmüş (radikal islamın yayılmasının qarşısının alınması, nüvə-radiasiya təhlükəsizliyinin, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi və s.) və postsovet məkanının yeni azadlıq əldə etmiş müsəlman dövlətləri ilə əməkdaşlıqda ciddi uğurlar qazanılmışdır.

Azərbaycan müsəlman dövlətləri arasında ən böyük yəhudi icmasına (təqribən 15000-30000) və illərin sınağından çıxmış dini tolerant mühitə malikdir. İsraildə yaşayan təqribi sayları 50000-70000 arasında olan azərbaycanlı icması da iki ölkə arasındakı qırılmaz körpünün yaradılmasında vacib rol oynayır. Azərbaycan Respublikası müasir dövrdə İsrail Dövlətinin ən sıx əlaqədə olduğu müsəlman dövlətidir. İllər ərzində İsrail Dövləti və Azərbaycan Respublikası arasındakı əlaqələrin əsas komponentlərini neft idxalı (İsrail Dövlətinin ümumi neft idxalının 40 faizi), silah ixracı və kəşfiyyat, xüsusi xidmət orqanları sahəsində əməkdaşlıq təşkil etmişdir. İkinci Qarabağ müharibəsindən sonra bura işğaldan azad edilən ərazilərdə ağıllı yaşayış məntəqələrinin inşası, kənd təsərrüfatında, "yaşıl" enerjinin istehsalında əməkdaşlıq, İsrail şirkətlərinin Xəzər dənizinin suyunun şirinləşdirilməsi üzrə layihələrdə iştirakları və bu kimi onlarla layihələr əlavə edilmişdir. Göstərilənlərlə yanaşı, Covid-19 pandemiyası başlamazdan öncə hər il təqribən 50000-ə yaxın İsrail vətəndaşının turist kimi Azərbaycana səfər etməsi turizm sahəsində əməkdaşlığın da yüksək səviyyədə olmasının nümunəsidir.

2020-ci ildə Azərbaycan Respublikası və İsrail Dövləti arasında karbohidrogen ticarəti istisna edilməklə mülki ticarət dövriyyəsi 200 milyon dollara yaxın olmuşdur. Rəsmi Bakı bu ticarət dövriyyəsini artırmaq, həmçinin səfirlik açılması üçün hazırlıq işlərinin aparılması məqsədilə 2021-ci ildə İsraildə ticarət nümayəndəliyi açmış və bununla ölkələr arasında iqtisadi əlaqələrin genişləndirilməsində maraqlı olduğunu bir daha nümayiş etdirmişdir. Hər iki ölkə arasında ticarət dövriyyəsi hər il yüksələn xətt üzrə inkişaf edir [4].

Azərbaycan və İsrail Dövləti arasında münasibətlər İsrail-Türkiyə əlaqələri baxımından da çox vacib əhəmiyyət kəsb edir. İllər ərzində ABŞ bu üç dövləti əməkdaşlığa təşviq etmiş, əməkdaşlığın nəticəsi olaraq da Azərbaycan neftinin Türkiyə ərazisi ilə İsrailə idxalı baş tutmuşdur.

İki ölkə arasında ticarət dövriyyəsi, ixrac və idxalın həcmi (milyon ABŞ dolları) [7].

| İl | Ticarət dövriyyəsi | İxrac | İdxal |
|---|---|---|---|
| 2019 | 1 375 302.46 | 1 331 616.19 | 43 686.27 |
| 2020 | 465 721.02 | 437 500.07 | 28 220.95 |
| 2021 | 928 402.76 | 898 096.98 | 30 305.78 |
| 2022 | 1 718 390.30 | 1 682 726.01 | 35 664.29 |
| 2023 | 1 84 245.24 | 1 725 805.01 | 28 440.23 |

Hamıya məlumdur ki, rəsmi Ankara və Tel-Əviv Bakının mühüm müttəfiqləridir və İkinci Qarabağ savaşındakı Azərbaycanın qələbəsində bu iki ölkənin dəstəyi danılmazdır. Azərbaycan Respublikasının hər iki dövlət üçün strateji tərəfdaş olması son illər ərzində Türkiyə və İsrail arasında əlaqələrin istiləşməsinə töhfə vermişdir. İsrail Dövləti və Türkiyə arasında son 10 il ərzində münasibətlərin gərgin olmasına baxmayaraq, İsrail Dövləti ilə Azərbaycan arasındakı əlaqələrə hər hansı mənfi təsir etməmiş, əksinə, münasibətlər daha da dərinləşmişdir. İsrail-Türkiyə-Azərbaycan üçbucağı özündə əməkdaşlıqla yanaşı, bir iqtisadi rəqabət mühitini də birləşdirir. Belə ki, İsrail Dövləti və Türkiyənin müdafiə sənayesi Azərbaycan bazarı uğrunda bir-biri ilə rəqabət aparır, bu isə hər iki ölkənin müdafiə sənayesinin texnoloji imkanlarının yüksəlməsini şərtləndirir.

İsraildə partiyaların hansının iqtidarda olmasından asılı olmayaraq, İsrail Dövləti ilə Azərbaycan arasında əlaqələr daim yüksələn xətt üzrə inkişaf edir. İsrail Dövlətinin Baş naziri B. Netanyahu 2016-cı ildə Azərbaycanda səfərdə olarkən müsəlman dünyasında, xüsusilə də ərəb dövlətlərində dəyişikliklərin yaşandığı bir zamanda belə bir fikir ifadə etmişdir: "Əgər onlar gələcəkdə nə ola biləcəyini görmək istəyirlərsə, o zaman Azərbaycana gəlsinlər və Azərbaycan ilə İsrail Dövləti arasındakı dostluq və əməkdaşlığı görsünlər" [2].

### 3. Azərbaycan-İsrail əməkdaşlığında mühüm prioritetlər

Bu gün İsrail dövlətinin Azərbaycan Respublikası ilə strateji əməkdaşlığının prioritetləri özündə aşağıdakıları əhatə edir:

1. İqtisadi münasibətləri və diplomatik əlaqələri daha da inkişaf etdirmək, dərinləşdirmək;
2. İranın təsirinin Cənubi Qafqazda artmasının qarşısının alınması və bu istiqamətdə profilaktik addımların atılması;
3. Təhlükəsizlik sahəsində əməkdaşlığı genişləndirmək;
4. Azərbaycan və İsrail Dövləti arasında siyasi və iqtisadi sahədə uzunmüddətli dostluq və əməkdaşlığın müsəlman və yəhudilərin sülh şəraitində birgə yaşayışının nümunəsi kimi qiymətləndirilməsi;
5. İsrailə neft və qaz ixracı ilə əlaqəli enerji layihələrində iştirak etmək;
6. Azərbaycanın zəngin enerji resursları və geocoğrafi mövqeyindən, Qərblə Şərqi birləşdirən yolların kəsişməsində, Xəzərin karbohidrogen ehtiyatlarının tranzitində açar mövqedə Mərkəzi Asiyaya gedən yolların üzərində yerləşməsindən faydalanmaq [3, s. 12].

Azərbaycan Respublikasının isə bu strateji əməkdaşlıqda əsas hədəfləri aşağıdakılardır:

1. Cənubi Qafqazdakı müxtəlif layihələrdə ortaq İran təhlükəsini neytrallaşdırmaq;
2. İsrail Dövlətinin istehsalı olan müasir və yüksək texnoloji silahlarına çıxış imkanları əldə etmək;
3. Yəhudi lobbisi vasitəsilə dünyadakı və xüsusilə ABŞ-dəki erməni diasporunun qarşısının alınması.

Azərbaycan Respublikasının İsrail dövləti üçün etibarlı enerji təchizatçısı olması iki ölkə arasındakı münasibətlərdə çox vacib faktordur. Sirr deyil ki, İsrail dövləti və yəhudi icması Bakı-Tbilisi-Ceyhan kəmərinin reallaşmasında çox böyük rol oynamışdır. Bakı-Tbilisi-Ceyhan kəməri vasitəsilə Azərbaycan nefti Avropaya, Yaxın Şərq regionuna çıxış əldə etdi, İsrail isə etibarlı neft təminatına nail oldu. Hazırda İsrail dövləti İtaliyadan sonra Azərbaycan neftinin əsas və ən böyük idxalçısıdır. İsrailin Eylat-Aşkelon boru kəməri vasitəsilə Azərbaycanın enerji resursları Cənubi Asiya və Uzaq Şərq bazarlarına çıxış əldə edib [8].

Cənubi Qafqazda illərlə formalaşmış olan İran-Ermənistan-Rusiya üçbucağına qarşı bu təhdidin neytrallaşdırılması məqsədilə Azərbaycan öz gələcək planlarını qurur. Bu məqsədlə Türkiyə-İsrail münasibətlərinin yaxşılaşmasına nail olmaqla, rəsmi Bakı Azərbaycan-Türkiyə-İsrail üçtərəfli blokun yaranmasına çalışır, Türkiyə və İsrail arasında ziddiyyətlərin yumşaldılmasında vasitəçilik edir. Belə güclü bir blokun təsis edilməsi halında Azərbaycan öz təhlükəsizliyini, o cümlədən də enerji ehtiyatlarının və onların nəqlinin uzun müddət təhlükəsizliyini təmin etmiş olacaq.

**Nəticə**

Son zamanlar Azərbaycan-İsrail münasibətlərində müəyyən dərəcədə çətin dövr yaşanır. Bu prosesə bəzi həmsərhəd dövlətlərin İsrail ilə olan münasibətləri, o cümlədən də Azərbaycanın aktiv üzv olduğu İƏT-in mövqeyi də az təsir göstərmir. Bütün bunlara baxmayaraq, Azərbaycan İsrail ilə əməkdaşlığa xüsusi əhəmiyyət verməli və bu istiqamətdə özünün regional və milli maraqlarını nəzərə almaqla addımlar atmalıdır. Fikirlərimizi ümumiləşdirsək, görərik ki, Azərbaycan Respublikası və İsrail Dövlətinin ölkələr arasında dərinləşən və inkişaf edən bütün sahələri əhatə edən əməkdaşlıqdan gələcəkdə də böyük fayda qazanacağı aşkardır.

## ƏDƏBİYYAT


1. Geifman A., Course D. Israel and Azerbaijan: Geopolitical Reasons for Stronger Ties. BESA Center Perspectives Paper, BESA center, July 15, 2013, No. 208, pp. 53-55.
2. Lindenstrauss G. Opening Azerbaijan’s Embassy in Israel: The Right Way to Strengthen Ties. Institute for National Security Studies (INSS). November 30, 2022, No. 1665, 27 p.
3. Azerbaijan Seeks to Expand Bilateral Trade with Israel. Israel Hayom, reprinted in JNS, April 22, 2021. (https://www.jns.org/azerbaijan-seeks-to-expand-bilateral-trade-with-israel/).
4. Shaffer, Brenda. Israel’s Role in the Second Armenia-Azerbaijan War and Its Implications for the Future. Central Asia-Caucasus Institute & Silk Road Studies Program, Joint Center, September 9, 2022, 97.
5. Baku. The Electronic Jewish Encyclopedia. 2005, vol. 1, no. 2, April 15, 42 p. (http://www.eleven.co.il/?mode=article&id=10381).
6. https://lib.aliyevheritage.org/az/8269149.html
7. https://www.mfa.gov.az/az/category/asiya-ve-okeaniya/israil
8. https://respublika-news.az/az/news/azerbaycan-israil-munasibetleri


***Резюме***

***Джейхун Саидов***

***Отношения Азербайджан-Израиль в контексте национальной и региональной безопасности***


В статье рассматривается история азербайджано-израильских отношений, обосновывается необходимость установления двусторонних отношений. Показано, что установление и дальнейшее развитие отношений с Государством Израиль всегда имело большое значение во внешней политике Азербайджана. Дружественные отношения между народами Азербайджана и Израиля имеют древнюю историю. Прежде всего, необходимо обратить внимание на отношения между азербайджанцами и евреями с древнейших времен до наших дней. Эти народы всегда с глубоким уважением относились к языку, религии и культуре друг друга. В статье показано, что взаимоотношения обоих государств сегодня вышли на уровень стратегического партнерства. Во внешней политике Азербайджана, восстановившего свою государственную независимость в 1991 году, установление равноправных отношений, основанных на взаимном доверии, со странами мира является одним из приоритетных направлений. Основной целью этой политики, установленной

общенациональным лидером Гейдаром Алиевым, является установление отношений с приграничными государствами, а также региональными государствами и другими государствами, являющимися членами мирового сообщества, на основе основных принципов международного права, защита национальных интересов страны на региональном и международном уровнях. Результатом этой политики, которую сегодня успешно продолжает президент господин Ильхам Алиев, является то, что число государств, поддержавших Азербайджан в ходе 44-дневной Отечественной войны, было довольно большим.

Начиная с первых лет независимости, установление и развитие отношений с государством Израиль всегда имело большое значение во внешней политике Азербайджана. 5 декабря 1991 года Израиль признал государственную независимость Азербайджанской Республики. 7 апреля 1992 года была заложена основа дипломатических отношений между Азербайджанской Республикой и Государством Израиль.

В 1993 году в Баку было открыто посольство Государства Израиль. Пришедший к власти в 1993 году общенациональный лидер Гейдар Алиев придавал особое значение налаживанию отношений с государством Израиль и неоднократно проводил различные встречи с израильскими государственными деятелями в двустороннем и многостороннем форматах.

**Ключевые слова**: *национальный интерес, стратегический интерес, международное право, государственные интересы, сотрудничество.*

### *Summary*

***Jeyhun Saidov***

### *Azerbaijan İsrael Relations in National and Regional Security Context*

The article examines the history of Azerbaijani-Israeli relations and substantiates the need to establish bilateral relations. It is shown that the establishment and further development of relations with the State of Israel has always been of great importance in the foreign policy of Azerbaijan. Friendly relations between the peoples of Azerbaijan and Israel have an ancient history. First of all, it is necessary to pay attention to the relations between Azerbaijanis and Jews from ancient times to the present day. These peoples have always treated each other's language, religion and culture with deep respect. The article shows that the relations between the two states have now reached the level of strategic partnership. In the foreign policy of Azerbaijan, which restored its state independence in 1991, the establishment of equal relations based on mutual trust with the countries of the world is one of the priority areas. The main goal of this policy, established by the national leader Heydar Aliyev, is to establish relations with border states, as well as regional states and other states that are members of the world community, on the basis of the basic principles of international law, protecting the country's national interests at the regional and international levels. The result of this policy, which is successfully continued today by President Ilham Aliyev, is that the number of states that supported Azerbaijan during the 44-day Patriotic War was quite large.

Since the first years of independence, the establishment and development of relations with the State of Israel has always been of great importance in the foreign policy of Azerbaijan. On December 5, 1991, Israel recognized the state independence of the Republic of Azerbaijan. On April 7, 1992, the foundation of diplomatic relations between the Republic of Azerbaijan and the State of Israel was laid.

In 1993, the Embassy of the State of Israel was opened in Baku. National leader Heydar Alıyev, who came to power in 1993, attached particular importance to establishing relations with the State of Israel and repeatedly held various meetings with Israeli government officials in bilateral and multilateral formats.

**Key words**: *national interest, strategic interest, international law, state interests, cooperation.*

Redaksiya heyətinin üzvü s.e.d., prof. Məmmədov Hikmət Baba oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.